*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 may 2019-cu il № 38 (2355) Qiyməti 30 qəpik

# "Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak edən fəal ölkələrdən biridir"

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığında işgüzar səfərdə olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 13-də belçikalıların Kralı Əlahəzrət Filip ilə görüşü olub.

Görüşdə Azərbaycan-Belçika ikitərəfli münasibətləri, regiondakı vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi.

Prezident İlham Əliyev belçikalıların Kralı Əlahəzrət Filipə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu və Prezident İlham Əliyevin Belçikaya səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsinə töhfə verəcəyi bildirildi.

* * *




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Ölkəmizin Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu qeyd edən Donald Tusk Azərbaycanın regiondakı rolunun Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər çox uğurla inkişaf edir və ölkəmiz bu əlaqələrin genişlənməsinə böyük önəm verir.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuska Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi barədə məlumat verdi.

Görüşdə ötən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyəti vurğulandı, həmçinin tərəflər arasında üzərində danışıqlar aparılan tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi aparıldı. Söhbət zamanı Azərbaycanın istər Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində, istərsə də ikitərəfli formatda Avropa İttifaqı ilə yaxından əməkdaşlığı xüsusi qeyd olundu.

* * *

Həmin gün Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə şam yeməyi verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak edib.

Sonra Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçıları rəsmi foto çəkdirdilər.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak edən fəal ölkələrdən biridir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Avropa İttifaqına üzv ölkələrlə də sıx əlaqələrə malikdir. Belə ki, Azərbaycanın Avropa İttifaqının üzvü olan doqquz ölkə ilə əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır.

Dövlətimizin başçısı, həmçinin bildirdi ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və təşkilatın üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edirlər.

Azərbaycan Prezidenti Şərq Tərəfdaşlığı Proqramının iştirakçısı olan Ermənistan və Azərbaycan arasında münaqişənin öz həllini tapmamasını təəssüflə qeyd etdi. Dövlətimizin başçısı torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini vurğulayaraq bildirdi ki, 25 ildən çoxdur bu münaqişə davam edir. Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

Prezident İlham Əliyev xatırlatdı ki, ötən il Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrində hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqları onların əməkdaşlığı çərçivəsində birgə şəkildə qorunur.

Dövlətimizin başçısı Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizinin reallaşdırılmasında mühüm rol oynadığını qeyd edərək ölkəmizin Avropa İttifaqı ilə nəqliyyat sahəsində də uğurla əməkdaşlıq etdiyini bildirdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Brüsseldə ölkəmizin Belçika Krallığındakı səfirliyinin yeni binasının açılışında iştirak edib.

Dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış oldu. Binanın girişi dövlət rəmzləri ilə bəzədilib. Burada dünyanın müxtəlif şəhərlərinin məşhur muzeylərində saxlanılan Azərbaycan xalçalarının fotoları, həmçinin 1870-ci il Təbriz xalçası nümunəsində əllə toxunmuş xalça da var. Daxili tərtibat işləri zamanı Qobustan qayaüstü rəsmlərinə də yer ayrılıb. Binanın birinci və ikinci mərtəbələri səfirliyin iş otaqları üçün nəzərdə tutulub. Burada səfirin, müşavirlərin və digər əməkdaşların, həmçinin konsulluq xidmətinin işçilərinin otaqları bütün zəruri avadanlıqla təchiz olunub. Bir sözlə, əməkdaşların səmərəli fəaliyyəti üçün binada hər cür şərait var. Binada, həmçinin səfirlik işçilərinin mənzilləri yerləşir.

Dövlətimizin başçısı səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.

* * *

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatdı.

**AZƏRTAC-ın materialları əsasında**

# General-polkovnik Zakir Həsənov: Azərbaycançılıq ideyasına və Heydər Əliyev irsinə yiyələnmiş şəxsi heyət yüksək döyüş əzminə və qələbə ruhuna malikdir

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissələrin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri, eləcə də hərbi psixoloqlarla görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edən Müdafiə naziri cari ilin ötən dövründə döyüş və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini apararaq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb.

Müdafiə naziri bildirib ki, ordu rəhbərliyi şəxsi heyətin azərbaycançılıq ideyası ilə tərbiyə olunmasını diqqət mərkəzində saxlayır, Azərbaycan əsgərinin vətənpərvər ruhda formalaşmasını, Vətənə, dövlətə sadiq xidmət etməsini təmin edir. General-polkovnik Zakir Həsənov qeyd edib ki, azərbaycançılıq ideyasına, Heydər Əliyev irsinə yiyələnmiş şəxsi heyət yüksək döyüş əzminə və qələbə ruhuna malikdir, Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirdir.

Orduda həyata keçirilən islahatlar, qazanılan nailiyyətlər, məişət və xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən quruculuq işlərindən danışan Müdafiə naziri tərbiyə işinin də planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır vəziyyətdə olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daima gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirəcək



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən 24-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qism, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir.

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunacaq.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

# “Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri Ermənistanı qorxuya salıb”

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, mayın 20-dən 24-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin keçirilməsi həmişə olduğu kimi, növbəti dəfə Ermənistan tərəfini qorxuya salıb.

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, ordumuzun planlı surətdə keçirdiyi təlimlər barədə Müdafiə Nazirliyi həmişə əvvəlcədən xəbər yaymaqla ictimaiyyəti və beynəlxalq qurumları məlumatlandırır. Eyni zamanda, təlimin mərhələləri barədə foto-video süjetlər nazirliyin rəsmi internet saytı vasitəsilə ictimaiyyətə təqdim olunur. Bizdən fərqli olaraq Ermənistan tərəfi heç vaxt belə addım atmır. Ermənistan keçirdiyi "hərbi təlimlər" barədə əvvəlcədən rəsmi məlumat vermir, yalnız "təlim" bitdikdən sonra əvvəllər çəkilmiş bir-iki döyüş texnikasının köhnə foto və videolarını yaymaqla kifayətlənir. Beynəlxalq qurumlar tərəfindən tanınmış sərhədlərimiz çərçivəsində təlimlər keçirməyimizdən təşvişə düşən rəsmi Yerevan guya bizim hansısa tələbləri pozmağımız barədə uydurma və gülünc bəyanatlarla çıxış etməkdən belə çəkinmir.

# Müdafiə Sənayesi Nazirliyinin iştirak etdiyi “MILEX-2019” sərgisinin açılışı olub

*Mayın 15-də Belarus Respublikasının paytaxtı Minskdə "MILEX-2019" IX beynəlxalq silah və hərbi texnika sərgisinin açılışı olub.*




Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, sərginin açılış mərasimində Belarus Prezidenti Aleksandr Lukaşenkonun tədbir iştirakçılarına təbrik məktubu oxunub.

Rəsmi açılışda Azərbaycan Respublikası Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev də iştirak edib.

Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin təşkilatçılığı ilə keçirilən sərgidə 10 ölkədən - Belarus, Azərbaycan, Almaniya, İtaliya, Qazaxıstan, Çin, Polşa, Rusiya, Serbiya və Cənubi Afrika Respublikasından 170 şirkət iştirak edir. Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi "MİLEX" sərgisində ilk dəfə stendlə təmsil olunur.

Mayın 15-də işə başlayan, iştirakçı sayına və infrastrukturuna görə Şərqi Avropanın böyük sərgilərindən biri hesab olunan "MILEX-2019"da MSN tərəfindən əsasən ixracyönümlü məhsullar - snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar, minaatanlar, müxtəlif çaplı döyüş sursatları və s. məmulatlar nümayiş etdirilir.

Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin bir sıra ölkələrin rəsmi nümayəndə heyətləri, eləcə də müdafiə sənayesi sahəsində fəaliyyət göstərən aparıcı şirkət və firmaların nümayəndələri ilə görüşləri təşkil olunub.

# Hərbi hissə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə seminar keçirilib



*Azərbaycan Ordusunun döyüş hazırlığı planına əsasən, hərbi hissə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri, ictimaiyyətlə əlaqələr üzrə baş köməkçiləri, həmçinin mədəni-kütləvi iş üzrə köməkçiləri ilə "Hərbi qulluqçuların mədəni-asudə vaxtlarının və xidmət şəraitinin təşkilinin aktual məsələləri" mövzusunda seminar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, seminarda çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev cari ilin ötən dövründə hərbi bölmələrdə ideoloji iş və mənəvi-psixoloji təminat fəaliyyətinin, eləcə də ictimaiyyətlə əlaqələr işinin hərbi qanunvericilik aktlarının tələblərinə uyğun təşkil edildiyini, bu sahənin daim diqqət mərkəzində olduğunu bildirib. Nazir müavini vəzifəli şəxslərin Ali Baş Komandanın, Müdafiə nazirinin bütün tələb və göstərişlərini məsuliyyətlə yerinə yetirəcəklərinə əmin olduğunu qeyd edib.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev 2019-cu il ərzində hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji təminat, hərbi intizamın yüksəldilməsi, hərbi qulluqçuların asudə vaxtının düzgün təşkili və digər sahələrdə görülmüş işlər barədə ətraflı məruzə ilə çıxış edib.



Sonra Azərbaycan Ordusunda ideoloji iş və mənəvi-psixoloji təminatın səviyyəsinin artırılması, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində komandir heyətinin məsuliyyəti, hərbi xidmət təhlükəsizliyinin təmin edilməsi, hərbi intizamın möhkəmləndirilməsi, şəxsi heyətin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi və digər mövzularında məruzələr dinlənilib, bölmələrdə mədəni-asudə vaxtın təşkili məqsədilə tədris filmləri nümayiş olunub, bu işin daha səmərəli həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb, müvafiq təkliflər irəli sürülüb.

Sonda zabit heyətinə seminarın mövzusu ilə bağlı müvafiq tövsiyələr verilib.

## Azərbaycan ilə Çexiya arasında hərbi-texniki əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

*Mayın 16-da Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-mayor Fuad Məmmədov ölkəmizdə səfərdə olan Çexiyanın "Ceska Zbrojovka Group SE" şirkətinin prezidenti Lyubomir Kovarikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan ilə Çexiya arasında həyata keçirilən hərbi-texniki əməkdaşlıq çərçivəsində birgə fəaliyyətin genişləndirilməsi məsələləri müzakirə olunub, şirkətin istehsal etdiyi hərbi təyinatlı məhsulların taktiki-texniki xassələri və tətbiqi imkanlarına dair təqdimat keçirilib.

## Azərbaycanın diplomatik xidmətinin 100 illiyi və Respublika Günü Varşavada qeyd edilib

Azərbaycanın diplomatik xidmətinin 100 illiyi və Respublika Günü münasibətilə Varşavada təntənəli ziyafət təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Polşa Prezidenti Administrasiyası Senatının və Seyminin, Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının rəhbərlikləri, diplomatik korpusun nümayəndələri, Azərbaycan diasporunun üzvləri və başqa qonaqlar iştirak ediblər.

Səfir Həsən Həsənov çıxışında müasir Azərbaycanın yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində əldə etdiyi nailiyyətlər və ölkəmizin uğurla iştirak etdiyi beynəlxalq layihələr barədə qonaqlara məlumat verib. O, 1918-1920-ci illər ərzində Polşa-Azərbaycan münasibətlərində xidmətləri olmuş Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, həmçinin Polşa diplomatları İqnatsi Yan Paderevski, Stanislav Patek, Mavriki Zamoyski və Vatslav Ostrovskininin xidmətlərini qeyd edib.

Diplomat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Polşanın ölkəmizin suverenliyi və ərazi bütövlüyü çərçivəsində dəstəyinin də yüksək qiymətləndirildiyini vurğulayıb.

Səfir Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda arasında işgüzar və dostluq münasibətlərinin qarşılıqlı etimad üzərində qurulduğunu xüsusilə qeyd edib.

Polşa Xarici İşlər nazirinin müavini Piotr Vavjık də çıxış edərək Respublika Günü və Azərbaycanın diplomatik xidmətinin 100-cü ildönümü münasibəti ilə nazir Yatsek Çaputoviçin təbriklərini çatdırıb.

Çıxışların ardınca Naxçıvan muğam triosunun ifası dinlənilib.

Tədbir milli mətbəx nümunələrinin də təqdim edildiyi ziyafətlə davam edib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Azərbaycan ilə NATO arasında PAP sənədi müzakirə olunub

Brüsseldə Azərbaycan Respublikası ilə NATO arasında "Planlaşdırma və Analiz Prosesi" sənədinin müzakirəsi üzrə "29+1" formatında görüş keçirilib.

Görüşdə bu sənəd çərçivəsində Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumları tərəfindən icra edilən Tərəfdaşlıq məqsədləri və öhdəlikləri, eləcə də digər məsələlər müzakirə olunub.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 may 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Abdinli, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***17 may 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Cəvahirli, Mərzili, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

*Ön xətdən reportaj*

# Qəhrəmanlar var, sabah da olacaq

*Yazın son ayı olsa da, çöl-çəmənə səpələnən çiçəklər könül oxşayır.*

*Hər dəfə fəslin bu çağında təbiət qoynuna çıxanda qəribə hisslər keçirirəm. Düşünürəm: görəsən, təbiət məni hansı gözəlliyi ilə heyrətə gətirəcək, ürəklərdə dərd bağlamış yurd nisgilimi əsrarəngsizliyiylə ovundura biləcəkmi?*



Gözəl yaz günündə dağlar qoynunda yerləşən bir məkanda ezamiyyətdəyəm. Yenə də dolanbac, ilan yollar bizi səngərə aparır. Düşüncələrim məni, Xalq yazıçısı Anarın təbirincə desək, bütün azərbaycanlıların ruhunun Vətəni Şuşaya götürür. Yol boyu düşünürəm, Qarabağımıza, ruhumuzun Vətəni Şuşamıza sədaqətimizlə, şücaətimizlə, vətənpərvərliyimizlə, əbədi bağlılığımızla qalib çıxacağıq. Azərbaycan əsgərinin sayəsində Xalq şairi Səməd Vurğunun "Vaqif" dramından bir misranı daha dönməzliklə deyək: "Tərlan oylağında sar ola bilməz".

Bir azdan səngərlərdə olacağıq, əsgərlərimizlə görüşəcəyik, söhbət edəcəyik. Ulu öndər Heydər Əliyevin formalaşdırdığı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənən, güclənən dünyanın ən güclü ordularından biri olan ordumuzdan, 2016-cı ilin Aprel döyüşlərindən, Günnüt zəfərindən və s. danışacağıq.



Ulu Öndərin "Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır", "Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq və Azərbaycan dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik" kəlamlarını da xatırlayacağıq.

Bu kəlamların aşıladığı qürurla səngərlərə yaxınlaşmaqdayıq. İçimdə yaranan sualları düşünə-düşünə, onların cavabını ala biləcəyim səngərə - Azərbaycan əsgərinin müvəqqəti son dayanacaq məntəqəsinə çatırıq. Bizi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Məhəmmədəli Məmmədov qarşılayır. O söhbət zamanı bildirir ki, Vətən keşiyində dayanmaq onun üçün hisslərin ən alisinə çevrilib: "Bu ali hissi anlamından da çox duymaq və yaşamaq lazımdır. Bu hissi yaşamadan səngərin mahiyyətini dərk etmək olmaz. İndiki məqamda bütün zabit və əsgərlərimizi bir məsələ düşündürür - Böyük Qələbə. Aprel döyüşlərini və Günnüt zəfərini qazananların davamçıları olaq. Böyük Qələbəni tezliklə reallaşdıraq. Zabitlərimiz əsgərlərimizə aşılayır ki, bu ali məqsədə nail olmaq - torpaq və millət naminə xalqımızın Qələbəsini təmin etmək üçün hər birimiz nizamnamələrin tələblərinə ciddi əməl etməli, əmr və tapşırıqları məsuliyyətlə yerinə yetirməliyik. Onlar yaxşı bilirlər ki, tarixi qələbə hərbi qulluqçularımızın döyüş və mənəvi-psixoloji hazırlığından da asılıdır".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vüqar Əliyev də söhbətə qoşulur: "Əsgər kimi əsas işimiz komandirlərimizin sayəsində hərbin sirlərinə dərindən yiyələnmək, müasir silah və texnikadan mükəmməl istifadə etməyi bacarmaqdır. Onu da yaddan çıxarmırıq ki, müharibədə həm də ideya və ruhla döyüşülür. Əsgər öz xalqının müharibələr tarixini bilməlidir, qəhrəmanlarını tanımalıdır, ruh yüksəkliyi olmalıdır. Biz həm də tariximizdən, qəhrəmanlarımızdan güc alırıq. 2016-cı ilin Aprel döyüşləri qalibiyyətlə başa çatdı. Aprel zəfəri sübut etdi ki, Azərbaycanın igid və cəsur oğulları hər zaman olub, var və olacaq."

Mayor Bəhmən Daşdəmirov vurğulayır ki, Azərbaycan Ordusunun nail olduğu inkişaf nəticəsində şəxsi heyətin döyüş əzmi də yüksəlib, qələbə ruhu da. Onu da bildirir ki, Azərbaycan Ordusu istənilən an torpaqlarını işğaldan azad etmək gücündədir. "Ordumuz gündən-günə inkişaf edir. Xalqımızın bizə inamı və güvəni sonsuzdur. Vətənə inam, xalqa sədaqət ruhunda xidmət edirik. İnanıram ki, Ağdamı, Xankəndini, Şuşanı, Laçını, Füzulini və işğal altında olan digər torpaqlarımızı da erməni işğalçılarından azad edəcəyik".

Əsgər Surət Məmmədzadə deyir: "Hərbi andı qəbul edən zaman and içmişik ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımızı və canımızı əsirgəməyəcəyik".

"Əsgər kimi üzərimizə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışırıq", - əsgər Ruslan Şərifov



söhbətə başlayır. "Bu gün əkiz qardaşım Nurlanla birlikdə eyni postda Vətənə xidmət edirik. Xidmət etdiyim müddətdə hərbin sirlərinə dərindən yiyələnmişəm. Qarşıda gördüyünüz dağın o tərəfi də tarixi Azərbaycan torpaqlarıdı. Torpaqlarımızın geri qaytarılması üçün xidmət edirik".

Əsgər Nurlan Şərifovun əsas arzusu qəhrəmanlarımızın yolunu davam etdirməkdir: "Qardaşımın və mənim ən böyük arzumuz Mübariz kimi, Çingiz kimi qəhrəman oğullarımızın yolunun davamçısı olmaqdır. Xocalı, Qaradağlı kimi faciələri unutmamışıq, unutmayacağıq da. Torpaqlarımızı işğaldan azad edəcəyik".

Mayor Bəhmən Daşdəmirov bildirir: "Şübhə yoxdur ki, əsgər Nurlan Şərifovun adını qeyd etdiyi və etmədiyi qəhrəmanlarımızın misilsiz qəhrəmanlığı ordumuzda nümunə və örnək timsalıdır, gənc əsgərlərimizin düşmənə nifrət və döyüşkənlik ruhunda tərbiyəsinə daha artıq kömək edəcək. Bunların təbliği, qəhrəmanların həyat yolunun öyrədilməsi bizlərin müqəddəs borcudur. Əsgərlərimizin vətənpərvərliyi, hünəri xalqımızın ordumuza olan sevgisindən güc alır."

- Hərbi xidmət mənə də həyatda mübarizə aparmaq və ədalətli olmaq hissini aşıladı, - deyə əsgər Vahid Muradov söhbətə qoşulur. - Burada valideynlərimin aşıladığı böyüyə və kiçiyə hörmətlə yanaşmaq fikirləri kollektiv arasında hörmət qazanmağıma vasitə oldu. Qarşılığında zabitlərdən, gizirlərdən, digər hərbi qulluqçulardan və əsgər yoldaşlarımdan qayğı və diqqət gördüm. Hərbçi olmaq qərarına gəlmişəm. Tərxis olduqdan sonra gizir hazırlığı kursunda təhsil alaraq Vətənimə xidməti davam etdirmək istəyirəm. Bu gün hər birimiz Vətən torpaqlarının müdafiəsində ayıq-ayıq dayanmışıq və Ali Baş Komandanımızın əmrini gözləyirik. Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad edəcəkdir. Sizin Böyük Qələbə günündən reportaj hazırlamağınıza çox qalmayıb. O gün uzaqda deyil!

Bu arzu əsgər arzusudur. Müqəddəs arzudur. Vətənlə bağlı olan belə arzuları xalqın arzusu bilirəm. Səngərdə eşitdiklərim, Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu xalqın istəyinin ifadəsidir. Bu istəyin, bu arzunun, həm də əsgər Vahid Muradovun bizə ünvanladığı istəyinin xoş təəssüratlarıyla qayıdırıq...

**Kapitan**
**Məhəmməd ƏLIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**



## “Anatolian Phoenix-2019” təlimləri davam edir

Türkiyənin Konya şəhərində "Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimləri davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin növbəti mərhələsində ssenariyə əsasən qəzaya uğramış aviasiya vasitəsi ekipajlarının yerinin müəyyən olunaraq xilas edilməsi məqsədilə axtarış-xilasetmə əməliyyatları həyata keçirilib.

Təlimlərin növbəti günündə helikopter ekipajları və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunan heyətlər müxtəlif epizodlar üzrə tapşırıqları icra ediblər.

## Naxçıvan Qarnizonu qoşunlarında “Ən yaxşı zenit-raket artilleriya batareyası” adı uğrunda yarış keçirilib

*2019-cu ilin döyüş hazırlığı planına əsasən, Naxçıvan Qarnizonu qoşunlarında "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda yarış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə hissə və bölmələri Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazinin mürəkkəb relyefini nəzərə alaraq Vətənimizin hava sərhədlərinin etibarlı müdafiəsini təmin etmək üçün mütəmadi olaraq peşəkarlıqlarını artırmaq məqsədilə təlim-məşqlərə cəlb edilirlər.



Yarışlarda iştirak edən şəxsi heyət bilik və bacarığını nümayiş etməklə verilən ən çətin tapşırıqları uğurla yerinə yetirib.

*Nəsillərə nümunə*

# Bir tarix yazıldı 9 may günü

*Tarixə qızıl hərflərlə yazılmış 9 May Qələbə Günü könülləri coşduran bayramdır. Böyük Vətən müharibəsinin iştirakçıları Qələbə Gününü həm də hünər, rəşadət, qəhrəmanlıq xatirələrinin yaşam bayramı kimi daha həssaslıqla qeyd edirlər...*



**İsmayıl Fərəcov:**

- Mən 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya gəlmişəm. 1942-ci ildə hərbi xidmətə çağırıldım. Kazım İsmayılovun rəhbərlik etdiyi 77-ci Stavropol diviziyasında kəşfiyyatçı idim. Mozdokdan Berlinə kimi döyüş yolu keçdim. O ağrı-acılı günləri sanki dünən olmuş kimi xatırlayıram. Kəşfiyyatçı kimi tez-tez düşmən arxasına keçdiyimiz üçün çətin vəziyyətlə üz-üzə qalırdıq.

Alman ordusunun dərinliklərinə kimi gedib çıxmışdıq. Ot tayasının içində gizlənib müşahidə aparırdıq. Sovet qırıcıları o ərazini bombalamağa başladı. Xeyli düşmənin məhv olduğu o anlarda yaralandım. Bu gün də gicgahımdakı qəlpənin əziyyətini çəkirəm. Kürəyimdən də yara almışdım. Bunlara baxmayaraq lazımi məlumatları toplayaraq geri döndük.

Kəşfiyyat çıxışlarımızdan birində Dnepr çayını keçirdik ki, almanlar bizim gəldiyimizindən duyuq düşüb atəşə tutdular. Müdafiəmiz zəif olduğundan geri qayıtdıq. Onda itkilərimiz çox olmuşdu. Növbəti dəfə yenə getdik və mövqe qələbəsi qazandıq.

Müharibənin hər anı ölümdü, dəhşətdi... Gecə-gündüz vuruşurduq. Qışda əziyyətimiz daha çox olurdu...

Qolumda 75 ildir gəzdirdiyim bu saat Stavropol döyüşlərindən yadigardır. Hər dəfə ona baxanda müharibəni və silahdaşlarımı xatırlayıram.

İllərdir Nəsimi rayon veteranlar təşkilatının sədriyəm. Daim ictimai işlərdə, əhali arasındayam. Gənclərimizlə görüşlərdə onlara Vətənin insan üçün nə dərəcədə müqəddəs olduğunu bildirirəm.

Biz veteranlara xüsusi diqqət və qayğı hisslərinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoydu. Ulu Öndər deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən dövlət başçımız İlham Əliyev bizim qayğımıza daim qalır.

Bir əsrə yaxın yaşadığım bu həyatda mənim ən böyük arzum doğma Vətənimdə Qələbə müjdəsi almaqdır. Ordumuzun Aprel döyüşləri, Günnüt zəfəri, keçirilən hərbi paradlar onu deməyə əsas verir ki, o gün uzaqda deyil...

## HHQ-nin hissə və bölmələri peşəkarlığını artırır

2019-cu ilin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) hissə və bölmələri arasında "Ən yaxşı heyət" və "Ən yaxşı kiçik mütəxəssis" adı uğrunda yarışlar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunların silahlanmasında olan müxtəlif döyüş texnikasının heyət və ekipajlarının cəlb olunduğu yarışlarda şəxsi heyətin döyüş tapşırıqlarını yerinə yetirməsi üzrə nəzəri bilikləri, praktiki vərdişləri və fiziki hazırlıqları yoxlanılıb.



Sonda normativləri yüksək səviyyədə yerinə yetirən heyətlər komandanlıq tərəfindən mükafatlandırılıb.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində silah-sursat oğurlayıb satma halları çoxalıb. Bu günlərdə silah anbarlarından birində yoxlama apararkən xeyli sayda hərbi əmlakın çatışmadığı ortaya çıxıb.

Düşmən tərəfindən işğal olunmuş Ağdərə yaşayış məntəqəsində odlu silahla törədilən cinayət hadisəsi ilə bağlı istintaq aparılarkən prokurorluğun müstəntiqi maraqlı fakt aşkar edib. Aydın olub ki, cinayətdə istifadə olunan silah yaxınlıqdakı hərbi hissəyə məxsusdur.

Qarnizon hərbi prokurorluğunun Karen adlı müstəntiqinin sözlərinə görə, bəzi əmlakın oğurlanması faktını ört-basdır etməyi bacarsa da, bir ədəd tapançanın və bir ədəd "Kalaşnikov" markalı avtomatın anbardan yoxa çıxması ilə bağlı əlavə cinayət işi açmağa məcbur olub.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən cinayət törətmiş zabitlərin sayı çoxalıb.

Ağdərə ərazisində yerləşən hərbi hissənin kəşfiyyat bölüyünə Davit Poğosyan adlı yeni zabit təyin edilib.

Hərbi hissənin zabiti T.Moqisyanın sorğusuna cavab olaraq prokurorluqdan bildiriblər ki, yeni təyin edilən D.Poğosyan əvvəlki xidmət yerində cinayət törətdiyi üçün ön xətdə yerləşən bölməyə keçirilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçular arasında xəstəlik hallarının artması halları artıq adiləşib.

Komandirlər tabeçiliyində olanları vaxtında müalicə müəssisələrinə göndərmədiklərinə görə sonradan halı ağırlaşan əsgərlər uzun müddət hospitalda qalır və müalicənin də yükü valideynlərin üzərinə düşür. Bu da erməni ailələrinin haqlı narazılığına səbəb olur.

Belə bir hadisə işğalçı ordunun 5-ci alayında xidmət edən əsgərin başına gəlib. Tibb məntəqəsinin rəisi Serqo Hakopyanın bildirdiyinə görə, tibb məntəqəsində olan əsgər Miran Xudoyanın vəziyyəti ağırlaşıb.

Dizlərində olan ağrılar səbəbindən erməni hərbçi artıq yeriməkdə çətinlik çəkir. Halı daha da pisləşən M.Xudoyan bu günlərdə təcili yardım maşını ilə Xankəndi hospitalına gətirilib. Əsgərin valideynləri isə lazım olan dərman preparatlarının alınıb ona çatdırılması üşün hospitala çağırılıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində cinayət törətmiş zabitlərin xidmət etməsi düşmən ordusunun reallığıdır. Şəxsi heyət çatışmazlığı səbəbindən işğalçı ordu rəhbərliyi hətta cinayət törətmiş hərbi qulluqçuları belə tərxis etmir, onların xidmət yerlərini dəyişməklə kifayətlənir.

Bu günlərdə hərbi hissənin snayper taqımına leytenant A.Davtyan adlı zabit təyin edilib. Komandir onun şəxsi işi ilə tanış olduqda zabitin əvvəl cinayət törətdiyinə görə məhkəmənin hökmü ilə azadlıqdan məhrum edildiyinin şahidi olub. Sonradan isə yüksək çinli məmur qohumunun səyi nəticəsində bu zabitə şərti iş kəsilərək onun xidmət yeri ön xətt bölmələrindən birinə dəyişdirilib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Müstəqillik tariximizin mühüm mərhələsi - 15 İyun Milli Qurtuluş Günüdür.

**Suallar:**
**1. Müstəqillik tariximizin mühüm mərhələsi.**
**2. 15 İyun Milli Qurtuluş Günüdür.**

*Müstəqillik tariximizin mühüm mərhələsi*

Azərbaycanda milli azadlıq hərəkatı hələ Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bərqərar olmuş sovet rejiminin ilk günlərindən başlamışdı. 1923-cü ildə "Müsavat" partiyası gizli şəkildə "İstiqlal" vərəqəsi nəşr etdirmiş və onun səhifələrində verilmiş bəyannamədə yazılmışdı: "Ey türk (Azərbaycan) xalqı! Səni azad edəcək və xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir. Azərbaycanın istiqlalını bir dəfə qurdun, ikinci dəfə də qurmaq bacarığına maliksən! Düşmənini tanı, milli intibahını yüksəlt, haqq sənindir! Yaşasın, Azərbaycan istiqlalı! Yaşasın, üçrəngli bayrağımız!"

Demokratiya və aşkarlıq şəraitindən məharətlə istifadə edən ermənilərin Azərbaycanın əzəli torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq iştahaları yenidən artdı. İlk növbədə azərbaycanlılar kütləvi olaraq Qərbi Azərbaycandakı doğma torpaqlarından qovuldular. Qısa müddət ərzində 230 mindən çox azərbaycanlı deportasiyaya məruz qaldı. 1988-ci il fevralın 21-də Azərbaycanın əzəli tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın tərkibinə keçməsi barədə qərar qəbul edildi. Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağdan da azərbaycanlıların təmizlənməsinə başlanıldı. 1988-ci il fevralın 24-də Əsgəranda iki azərbaycanlı öldürüldü, fevralın 28-də faciəli Sumqayıt hadisəsi törədildi. 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz mitinqi keçirildi. Kütlələrin etiraz mitinqlərindən ən əzəmətlisi 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında oldu. Bu mitinqdə yarım milyondan çox adam iştirak etmişdi. Mitinq "suverenlik", "azadlıq" şüarları altında keçmişdi. Mitinq zamanı iştirakçıların bir qismi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırılmışdı. Mitinq dekabrın 4-də şəhərə yaxın silahlı qüvvələr tərəfindən dağıdıldı. Bu, Azərbaycanın müasir tarixinə Milli Dirçəliş hadisəsi kimi daxil olmuşdur.

1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması barədə" fərman verdi. Bakı və ətraf rayonlara əlavə hərbi qüvvələr gətirildi. Qüvvələrin dinc şəhərə daxil olmasına yol verməməyə çalışan bir qrup şəhər sakinləri simvolik maneələr yaratmağa səy göstərdilər. Lakin "şanlı" sovet hərbi hissələri mərkəzin azərbaycanlılara divan tutmaq qərarını yerinə yetirməyə başladılar. Əməliyyata bilavasitə o zamankı SSRİ Müdafiə naziri D.Yazov başçılıq edirdi. Yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti ayın 20-i saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Lakin o, qırğından sonra elan olunmuşdu. Əhaliyə hadisələr barədə məlumat verilməsin deyə yanvarın 19-u axşam respublika dövlət televiziyasının enerji bloku partladıldı. Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə xüsusi təyinatlı hissələrdən ibarət "şanlı" Sovet ordusu Bakı üzərinə hücuma keçdi. Şəhərdə qanlı qırğın törədildi. Bakıda və digər rayonlarda dinc vətəndaşlar qətlə yetirildi. Onların arasında çoxlu sayda qocalar, qadınlar və uşaqlar var idi. "Qanlı Yanvar"a etiraz olaraq respublikada 40 günlük ümummilli matəm təntənəli keçirildi. Bu faciədən xəbər tutan Heydər Əliyev ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiyanın Bakıda qanlı qırğın törətdiyini dünyaya bəyan etdi, onu "təcavüz və xəyanət" kimi qiymətləndirdi. Həmin ərəfədə respublikada hakimiyyət dəyişikliyi baş verərək, Əbdülrəhman Vəzirovun yerinə hakimiyyətə Ayaz Mütəllibov təyin edilmişdi. O, 1990-cı ilin yanvarında Azərbaycan KP MK-nın birinci katibi, həmin ilin mayında isə Ali Sovet tərəfindən Azərbaycan SSR-in prezidenti seçildi. Ordunun köməyi ilə yerlərdə də kommunist ağalığı bərpa olunmuşdu. Azərbaycan SSR Ali Sovetinin sessiyası 1990-cı ilin sentyabrında saxtakarlıq şəraitində keçirilən seçkilər nəticəsində əksəriyyəti kommunistlərdən ibarət (360 deputatdan ancaq 30-u demokratik blokdan idi) Ali Sovet formalaşdı. Bu seçkilərdə xalqın iradəsi ilə Heydər Əliyev də Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçilmişdir.

Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi. 1991-ci ilin sentyabrında Dağlıq Qarabağ özünü müstəqil respublika elan etmişdi. Ermənilər Dağlıq Qarabağdakı Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycanın ətraf yaşayış məntəqələrini işğal edirdilər. Hakimiyyət isə ciddi tədbirlər görmək iqtidarında deyildi. Belə bir şəraitdə xalqın tələbi ilə Ali Sovetin 1991-ci il oktyabrın 18-də toplanış sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyi rəsmən bərpa olundu. Həmin gün tariximizə "Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsi günü" kimi daxil olmuşdur.

Hələ SSRİ-nin yaşadığı bir şəraitdə respublikada milli dövlət quruculuğu formalaşmağa başlayaraq prezident idarəçiliyi yaradıldı. Dövlət katibi və dövlət müşavirləri vəzifələri təsis olundu. 1991-ci il noyabrın 26-da bərabər əsasda (25 nəfər "demokratik blok"dan, 25 nəfər iqtidar yönlü deputatlardan) 50 nəfərlik Milli Şura yaradıldı.1991-ci ilin axırlarında SSRİ dağıldıqdan sonra dekabrın 29-da Azərbaycan Respublikasında ümumi rəy sorğusu keçirildi. Xalq yekdilliklə dövlət müstəqilliyinə tərəfdar çıxaraq Azərbaycan Respublikasının əməli müstəqillik mərhələsi başlandı.

Müstəqilliyimizin ilk illərində ictimai-siyasi vəziyyət gərgin olmaqda qalırdı. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qəsdləri davam edir, iqtidar-müxalifət qarşıdurması kəskinləşir, iqtisadiyyat isə tənəzzül edirdi. Bunlar da siyasi duruma çox mənfi təsir göstərərək respublikada vəziyyəti vətəndaş müharibəsi həddinə çatdırılmışdı. Belə şəraitdə xalqını, Vətənini sevən ziyalıların nəzəri diqqəti 1990-cı ilin iyulunda Moskvadan Azərbaycana gələrək Naxçıvanda məskunlaşan və xalqın təkidi ilə 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilən təcrübəli siyasətçi Heydər Əliyevə çevrilmişdi. Onlar çıxış yolunu onun respublika rəhbərliyinə gəlməsində görürdülər. 1992-ci il oktyabrın 16-da ziyalılardan ibarət 91 nəfərin "Səs" qəzetində Heydər Əliyevə yenidən böyük siyasətə qayıtması xahişi ilə müraciəti dərc edildi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradıldı.

*15 İyun Milli Qurtuluş Günüdür*

Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdir. İctimai həyatın bütün sahələrində hərc-mərclik baş alıb gedirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltmək əvəzinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdür. Qiyamçı hərbi hissənin rəhbərliyi Baş nazir və Milli Məclis sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdi. Vəziyyət nəzarətdən çıxaraq ətraf rayonların icra başçıları zorla dəyişdirilmişdir. Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdü. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdı. Ümummilli Liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra isə Ulu Öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. 1993-cü il iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi və həmin gün tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcı oldu.

1993-cü il iyunun 18-də gecə xəbər vermədən Prezident Əbülfəz Elçibəy (Əliyev) paytaxtı tərk edərək respublikanı rəhbərsiz qoyaraq anadan olduğu Ordubad rayonunun Kələki kəndinə getdi. İyunun 23-də Milli Məclis prezident səlahiyyətlərini də Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi. 1993-cü il oktyabrın 3-də Heydər Əliyev ümumxalq seçkisi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da müstəqilliyimizin Heydər Əliyev mərhələsi başlandı. Bu mərhələnin başlanması ilə respublikada hakimiyyət boşluğu aradan qaldırıldı və baş alıb gedən separatçılıq meyilləri yox edildi.

Heydər Əliyev ordu quruculuğu işini elmi əsaslarla və planlı surətdə həyata keçirməyə başladı. 1993-cü il noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Şurası yaradıldı. 1993-cü il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Ümummilli Liderimizin bu tarixi müraciətindən sonrakı dövr ordu quruculuğunda əsas mərhələnin başlanğıcıdır.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri son bir neçə ay ərzində ilk dəfə olaraq Azərbaycan Ordusunun hissələrinin güclü müqavimətinə rast gələrək uğursuzluğa düçar oldular. 1993-cü il dekabrın 28-də Ermənistan qoşunlarının Goranboy, Tərtər və Ağdam istiqamətlərində də hücumlarının qarşısı alındı. Bu istiqamətlərdə xeyli canlı qüvvə və texnikası məhv edilən düşmən geri çəkilməyə məcbur oldu. Füzuli-Beyləqan istiqamətində döyüşçülərimiz 40 km-ə qədər irəliləyərək düşməni darmadağın etdilər. Həmin günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması, döyüşçülərin qayğıları ilə yaşaması onlara yeni ruh yüksəkliyi verirdi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlar öz müsbət təsirini göstərdi və düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu. Bu da ölkədə sabitliyin davam etməsi üçün mühüm şərt idi.

1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqavilələri imzalandı. İndi dünyanın 14 dövlətindən olan 30-dan çox şirkətlə 21 neft müqaviləsi imzalanaraq Azərbaycan iqtisadiyyatına 10 milyard dollar investisiya qoyulmuşdur.

1994-cü ilin oktyabrında, o zaman baş nazir olan Surət Hüseynovun başçılığı ilə dövlət çevrilişi etmək cəhdi xalqın köməyi ilə aradan qaldırıldı. Eyni zamanda, Əlikram Hümbətovun "Talış-Muğan" respublikası yaratmaq və 1995-ci ilin martında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis dəstələrinə başçılıq edən Rövşən Cavadov və onun qardaşı prokuror Mahir Cavadov tərəfindən zorakı hökumət dəyişikliyi cəhdlərinin qarşısı alındı. Azərbaycanda sabitlik bərqərar olunaraq, dövlətçiliyimizə qarşı qəsdlər ləğv olundu.

Möhkəm sosial-siyasi sabitliyin və qanunçuluğun bərqərar olması müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinə imkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bununla respublikanın inkişaf tarixində - demokratik, hüquqi dövlət qurmaq, ölkənin dinamik inkişafını təmin etmək prosesi başlandı. Konstitusiyaya əsasən respublikada qanunvericilik, icraedici və məhkəmə hakimiyyəti yaradıldı. Parlament seçkiləri yolu ilə müxtəlif partiyaları təmsil edən 125 deputatdan ibarət Milli Məclis formalaşdırıldı. Milli Məclisin qanunvericilik fəaliyyəti gücləndirilərək dövlət quruculuğu və yeni iqtisadi sistemin müvafiq hüquqi bazasını yaratmağa yönəldilmiş çoxlu qanunlar qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ulu Öndərin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib. Ümummilli lider Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərərək bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanıb.

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən daxili və xarici siyasəti sayəsində Azərbaycan Ordusu müasir texnika və silahlarla təchiz olunması, zabit kadrları ilə komplektləşdirilməsi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş ümummilli lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycanın hələ neçə-neçə nəsli Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı və xalqımızın rifahı naminə faydalanacaq.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Medallı igidlərimiz*

# İgid, cəsur zabit anıldı

*Aprel döyüşləri həm Azərbaycan Ordusunun gücünü, həm də şəxsi heyətin vətənpərvərlik ruhunu nümayiş etdirdi. Bu döyüşlərdə düşmənlərimizlə yanaşı, bütün dünya ordumuzun necə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərdiyinin şahidi oldu.*




Bu döyüşlərdə kapitan Nəcməddin Savalanov da şəhid oldu.

Nəcməddin Savalanov 1985-ci il fevralın 26-da İmişli rayonunun Göbəkta-la kəndində anadan olmuşdu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdi.

2016-cı il aprelin 2-də Qapanlı-Seysulan istiqamətində gedən döyüşlərdə ağır güllə yarası alan kapitan Nəcməddin Savalanov şəhid oldu.

Şəhid kapitan Nəcməddin Savalanov doğulduğu İmişli rayonunun Göbəkta-la kəndində son mənzilə yola salınıb.

Nəcməddin Savalanov göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Bu günlərdə "N" hərbi hissəsinin şəxsi heyətinin bir qrupu şəhid kapitanın məzarını ziyarət edib, ailəsi ilə görüşüb. İctimaiyyət nümayəndələrinin də iştirak etdiyi görüşdə şəhidin döyüş yoldaşları Nəcməddinin igidliyindən, cəsurluğundan, vətənsevərliyindən danışıblar. Ordumuzun əsgər və zabitlərinin Ali Baş Komandanın əmrinə müntəzir olduqlarını bildiriblər.

Şəhidin ailə üzvləri dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğısına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdar olduqlarını bildiriblər.

**"Azərbaycan Ordusu"**

# "Vətənimizi çox sevirdi..."



*Ermənistanın elan etmədən başladığı müharibənin ilk günlərindən əsgərlərimiz ölümdən çəkinmədən döyüşdü. Bu illər ərzində minlərlə şəhid verən xalqımızın mübarizlik salnaməsinə Zakir Cəfərovun da adı yazıldı. İçdiyi Hərbi anda sadiq qalan, şəhidliyi ilə ölməzliyə qovuşan Zakir qəlblərdə əbədi məskən qurdu...*

Zakir Cəfərov 1996-cı ildə Bakı şəhərində anadan olmuşdu. 2011-2015-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecində təhsil almışdı. Kollecdə təhsil aldığı illərdə dərsə davamiyyəti və nizam-intizamı, savadı ilə müəllimlərinin hörmətini qazanmışdı. Humanitar fənləri - tarixi, ədəbiyyatı da sevirdi. O hərbi xidmət keçdikdən sonra ali məktəblərdən birinə daxil olmağı qarşısına məqsəd qoymuşdu. Eyni zamanda, həvəskar idmançı kimi cüdo ilə məşğul olurdu. Çevikliyi, çəldliyi, hazırcavablığı və çox xeyirxah, humanist olması onu həmyaşıdlarından fərqləndirən xarakterik cəhətləriydi. Bu xarakteri ona çoxlu dostlar qazandırmışdı. O hamının sevimlisinə çevrilmişdi.

Təhsilini başa vuran Zakir 2016-cı ildə Vətənə övladlıq borcunu vermək üçün hərbi xidmətə çağırıldı. "N" hərbi hissəsində xidmətə başladı. İlkin hərbi vərdişlərə dərindən yiyələndi. Komandirlərinin tapşırıqlarını vaxtında yerinə yetirən nümunəvi əsgər kimi şəkli şərəf lövhəsinə vuruldu. Aprel döyüşlərində iştirak etdi. Döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəldi. Onun son döyüş tapşırığı... 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə Xocavənd rayonunun Nərgiztəpə ərazisində düşmənin kəşfiyyat-diversiya qrupunun təxribatlarının qarşısını alarkən şəhid oldu. Fevralın 28-də Bakı şəhərinin Nizami rayonunun Keşlə qəsəbəsində böyük izdihamla son mənzilə yola salındı. O, göstərdiyi fədakarlığa və mərdliyə, igidliyə görə ölümündən sonra "Şücaətə görə" medalı ilə təltif edildi.

Zakirin kollecdə qrup rəhbəri olmuş Gövhər müəllimin ürək sözləri daha qürurvericidir: "Zakir üçün yazılası, deyiləsi o qədər söz var ki... Bu gün aramızda olmasa da, hər gün mənimlədir savadlı, gözəl tələbəm. O hamıdan fərqli olaraq bizim kollecə adını iki dəfə yazdırdı - bir dəfə tələbə kimi, bir dəfə də şəhid kimi. Nə vaxt baxsaydım, uşaqları bir yerə toplayıb nədənsə danışdığını, nəyisə müzakirə etdiyini görərdim. Demək olar ki, bütün kollecdə özünü hamıya sevdirmişdi, istər tələbə, istərsə də müəllim kollektivinin hörmətini qazanmışdı. Kolleci bitirəndən sonra da bizi unutmamışdı. Tez-tez bizə baş çəkərdi. Yadımdadır, bir gün gəldi ki, əsgər gedirəm. Bütün müəllimlərlə görüşdü, sağollaşdı. O, şəhidlik zirvəsinə ucalaraq geri döndü... Biz şəhid tələbəmiz Zakirlə fəxr edirik."

Anası Kəmalə xanım oğlu ilə fəxr etdiyini, qürur duyduğunu dedi. "Sanki Zakiri tanımamışam. O, gənc yaşında insanların ürəyinə yol tapmağı bacarmışdı.Tələbə yoldaşları, əsgər yoldaşları, dostları, müəllimləri, komandirləri, qohum-əqrəba, qonşular indi də Zakirin vətənpərvərliyindən, insanpərvərliyindən, dosta, qardaşa arxa-dayaq olduğundan danışır. Yaxşı yadımdadır. Mübariz İbrahimovla Fərid Əhmədovun nəşi erməni əsirliyindən alınıb dəfn edilləndə Zakir də yaxın dostları və bir qrup sinif yoldaşı ilə birlikdə Fəxri xiyabana getmişdilər. Orada gördüklərindən, Mübarizin, Fəridin qəhrəmanlığından, igidliyindən mənə, nənəsinə danışırdı. Qarabağ müharibəsindən bizə çoxlu suallar verirdi. Onu da deyim ki, heç nəyi büruzə verməzdi. Çətinliyi olanda da özü həll etməyə çalışardı. Torpağını, xalqını sevən idi Zakir. Həmişə deyərdi ki, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə mən də iştirak edəcəm."



- Əsgəri məzuniyyətə gələndə deyirdi ki, burada iki şəxsi keyfiyyət vacib şərtdir. Birincisi, liderlik etməyi, ikincisi isə tabe olmağı bacarmalısan. Xalqımızı, dövlətimizi çox sevirdi. Zakirdə liderlik etmək bacarığı çox yüksək idi. Həmişə onun qrup rəhbəri də deyirdi ki, Zakirdə liderlik, təşkilatçılıq qabiliyyəti var. Nə vaxt hansısa tədbir və ya tura getmək lazım olurdusa, bütün qrupu o bir araya toplayardı. Heç kim onun sözündən çıxmazdı. Beləcə bu liderlik xüsusiyyətinə görə Zakir manqa komandiri seçilmişdi."

Kəmalə xanım ölkə Prezidentinin şəhid ailələrinə diqqət və qayğısından, onların sosial müdafiəsinin gücləndirilməsindən danışaraq dövlət başçısına minnətdarlığını bildirdi.

...İnsan qurub-yaratmaq, Vətənini, torpağını müdafiə etmək üçün dünyaya gəlir. Torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi qəlblərdə əbədi yaşayacaq.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə axtarışda olan təhlükəli terrorçu məhv edilib



Türkiyənin Siirt bölgəsində aprelin 30-da keçirilmiş antiterror əməliyyatında zərərsizləşdirilən 6 terrorçunun şəxsiyyəti müəyyənləşdirilib.

Onlardan biri nazirlik tərəfindən axtarışda olan "Helin Gabar" ləqəbli Akide Özteкindir. Bu təhlükəli terrorçunun tutulması üçün 1 milyon 500 min Türkiyə lirəsi (təxminən 250 min ABŞ dolları) məbləğində pul mükafatı ayrılmışdı.

### ABŞ və Filippin gəmiləri mübahisəli sularda birgə təlimlər keçiriblər



Filippinin və ABŞ-ın Sahil Mühafizəsi xidmətləri Cənubi Çin dənizinin mübahisəli sularında birgə təlimlər keçiriblər.

Təlimlər Luson adasının qərbində, Skarboro Şoal adasının yaxınlığında keçirilib. Bu, ABŞ və Filippin dənizçilərinin dayaz yerdə keçirdiyi ilk birgə təlimlərdir.

Qeyd edək ki, Çinin nəzarəti altında olan həmin ərazilərə Filippin və Tayvan da iddialıdır.

Təlimlər zamanı ABŞ və Filippin hərbi dəniz qüvvələrinə məxsus gəmilər sərnişin gəmisi batırıldıqdan sonra axtarış-xilasetmə əməliyyatlarını məşq ediblər.

Qeyd edilir ki, təlimlərin gedişində Çinin sahil mühafizəsinə məxsus olan iki gəmi onu izləyib. Gəmilərdən biri beş kilometr məsafədə Filippin gəmisinə yaxınlaşsa da, təlimlərə mane olmaq üçün heç bir hərəkət etməyib.

Eyni zamanda, ötən ay ABŞ və Filippin dəniz qüvvələri uzaqda yerləşən işğal edilmiş adanın azad edilməsi ssenarisi əsasında birgə illik təlimlər keçiriblər.

### Misirdə 47 xüsusi təhlükəli ekstremist məhv edilib



Son vaxtlar Misir Silahlı Qüvvələrinin polislə birlikdə Sinay yarımadasının şimalında və mərkəzi hissəsində apardığı antiterror əməliyyatı zamanı 47 xüsusi təhlükəli ekstremist məhv edilib.

Əməliyyat zamanı terrorçuların istifadə etdikləri sığınacaqlar və nəqliyyat vasitələri məhv edilib, 385 partlayıcı qurğu zərərsizləşdirilib, külli miqdarda silah və hərbi sursat, habelə partlayıcı maddə müsadirə olunub, müxtəlif cinayətlərin törədilməsində şübhəli bilinən 100-dən çox adam tutulub.

Bəyanatda deyilir ki, antiterror əməliyyatı zamanı Misirin üç hərbi qulluqçusu həlak olub.

### ABŞ dövlət qulluqçularını İraqdan çıxarır



ABŞ Dövlət Departamenti fəaliyyətləri operativ xidmətlərlə bağlı olmayan bütün dövlət qulluqçularının İraqı tərk etməsi barədə göstəriş verib.

Bu barədə ABŞ-ın Bağdadda yerləşən səfirliyi məlumat yayıb. "Dövlət Departamenti fəaliyyətləri operativ xidmətlərlə bağlı olmayan bütün amerikalı dövlət işçilərinin, o cümlədən Bağdaddakı səfirlik və Ərbildəki konsulluq əməkdaşlarının İraqdan çıxarılması barədə göstəriş verib", - diplomatik nümayəndəliyin saytında yerləşdirilən məlumatda belə deyilir.

Səfirliyin məlumatına görə, viza xidmətlərinin göstərilməsi müvəqqəti olaraq dayandırılacaq. Bir qədər əvvəl ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı İran tərəfindən hərbçilərə potensial təhlükənin artması səbəbindən İraq və Suriyada həyəcan səviyyəsini yüksəldib.

**AZƏRTAC-ın materialları əsasında**

Könlüm şeir istəyir

# “Bizimdir gələcək, bizimdir zəfər!”

## Azərbaycan

Azərbaycan, ana yurdum, ey əziz Vətən!
Gen sinəndə çiçək açan bir budağam mən.
Səndə ellər, səndə dillər, qəlblər azaddır.
Nur içirsən bir günəşin şəfəqlərindən.
Gözəl Vətən, gözəl diyar, Azərbaycanım!
Sənsən mənim göz bəbəyim, ciyərim, canım!

Yaz günüdür, dağlarında gülür lalələr,
Artıq tutmaz gözlərini yanıq nalələr.
Səndə bu gün həyat gözəl, ömür şirindir.
Düzlərində maral gəzər, ceyranlar mələr.
Gözəl Vətən, gözəl diyar, Azərbaycanım!
Sənsən mənim göz bəbəyim, ciyərim, canım!

Keçən günlər nələr çəkdi, ey Vətən, başın?
Dağı, daşı əridərdi axan göz yaşın.
İndi elin qüvvəti var polad canında,
Ətir saçır üstümüzə torpağın, daşın.
Gözəl Vətən, gözəl diyar, Azərbaycanım!
Sənsən mənim göz bəbəyim, ciyərim, canım!

Ayaq basmaz torpağına bir də yağılar,
Düşmənlərə qismət oldu dərdlər, ağılar.
Əgər sabah hərb olarsa, bir əsgər kimi
Bir qıy vurruq düşmən bağrı sönər, dağılar.
Gözəl Vətən, gözəl diyar, Azərbaycanım!
Sənsən mənim göz bəbəyim, ciyərim, canım!

## Vətən sevgisi

Ey Vətən! Tarixdən sordum halını,
Dedi: al qan olub torpağın sənin.
Bir acı dövranın qəm-qüssəsindən
Saralıb-solubmuş yarpağın sənin.

Deşərmiş sinəni ahlar, amanlar,
Sararmış başını sislər, dumanlar,
O köhnə əyyamlar, qədim zamanlar
Gülməzmiş bir qaşın-qabağın sənin.

İndi nə bəxtəvər, nə xoş çağın var,
Səndə nə gül ağlar, nə bülbül ağlar.
Odlu bir eşqlə çağırır - ey yar!
Hər dərən, hər təpən, hər dağın sənin.

Buludsuz göylərin damar-damardır,
Səndə insan oğlu nə bəxtiyardır,
Elə bil bəzənən bir nazlı yardır
Zümrüd çəmənlərin, ovlağın sənin.

Mən hey dolandıqca dağda, çəməndə,
Səsinə səs verir dağ da, çəmən də.
Şair xəyalımı salır kəməndə
Sərin çeşmələrin, bulağın sənin.

Faşistlər qızışsa ölüm, qan deyə,
İki cəbhə gəlsə pəncə-pəncəyə,
Düşmənin külünü sovurub göyə
Qələmim olacaq dayağın sənin.

## Hücum nəğməsi

Hücum! Mərd igidlər, qeyrət çağıdır,
Sizi döyüşlərə çağırır Vətən!
Düşmən viran qoyur, düşmən dağıdır,
Eşqə əl qaldırır hər yoldan ötən.

Sıyrılıb qınından misri qılınclar,
İntiqam bürüyüb göyün üzünü.
Hücum, əlimizdən almasın əğyar
Ömrün bu günəşli, xoş gündüzünü!

Əssin nərəmizdən dağlar, qayalar,
Ərisin düşmənin qəlbinin yağı.
Azad nəfəs alsın o sevgili yar,
Azad nəfəs alsın Vətən torpağı!

Hücum, dilə gəlsin dərələr, düzlər;
Hücum, ürəklərə dolsun qəzəb, kin!
Hücum, sinələri eyləyək sipər,
Solmasın gül bağı şerin, sənətin!

İrəli var olsun böyük məhəbbət,
Yaşasın azadlıq, yaşasın səhər!
İrəli qardaşım! Gülsün təbiət,
Bizimdir gələcək, bizimdir zəfər!

## Çiçək

Bahardır, açılıb hər tərəfdə gül,
Çəmən don geyinib qızıl lalədən.
Bəxtəvər gəncliyin timsalı bülbül
Mey içir bu gözəl, xoş təranədən.

*Şair Böyükağa Qasımzadə həm də zabit idi...*

*İkinci Dünya müharibəsi başlayanda Azərbaycan Pedaqoji İnstitutunun məzunu şair Böyükağa Qasımzadə də ordu sıralarına çağırıldı. Hərbi məktəbi bitirdikdən sonra Cənub cəbhəsində taqım komandiri, siyasi şöbənin təlimatçısı, Zaqafqaziya cəbhəsində "Döyüşçü" qəzetinin məsul katibi və s. olub... Müharibədən sonra "Ədəbiyyat qəzeti"ndə incəsənət şöbəsinin, "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri olan Böyükağa Qasımzadə dəyərli vətəndaş, gözəl şair idi.*

**"Azərbaycan Ordusu"**

Gözəldir bu yerdə hər canlı xilqət,
Gözəldir göyərən bu xoş gülüstan.
Deyin, bu gülşəni hansı bir qüvvət
Yaratmış haradan, hansı bir zaman?

Sevirəm, çiçəyim, sevirəm səni,
Sevirəm laləzar zümrüd çəməni.
Eşqimin tarixi səndən əzəldir.

Fəqət, sən ey çiçək, inan ki, mənim
Bəxtəvər gəncliyim, azad Vətənim
Səndən daha şirin, daha gözəldir.

## Ana

Anadır dünyanın qoca bağbanı,
Anadır həyatın ilk çıraqbanı.
Günəşsiz açılan bir gül, bir çiçək,
Bağbansız göyərən gülüstan hanı?!

## Məhəbbət nəğməsi

Doğ, ey məhəbbətin səhər ulduzu,
Sevincim şeh olub güllərə düşsün!
Gözəllik timsalı sonalar kimi
Xəyalım dumduru göllərə düşsün!

Kükrəsin qələmim dalğalar kimi,
Tökülsün sözlərim şirin bar kimi,
Bu dərya sinəmdən ruhu var kimi,
Nəğmələrim qopub tellərə düşsün!

Yazım dastan qoşum yara, yoldaşa,
Bizim ürəkdaşa, bizim sirdaşa,
Qoy xain əməllər çırpılıb daşa
Tufanlara düşsün, sellərə düşsün!

Yazılsın tarixə şanlı adımız,
Bürüsün dünyanı toy-büsatımız,
Bu solmaq bilməyən gül həyatımız,
Söylənsin, dillərdən dillərə düşsün!

Gəlsin car çəkməyə, gəlsin nəfəsim,
Daşsın dərya kimi eşqim, həvəsim,
Günündən zövq alıb yüksələn səsim
Gözəl xoş qədəmli illərə düşsün!

## Mən dağlar oğluyam...

Mən dağlar oğluyam.... Bura evimdir,
Bura hünər yurdum, döyüş məskənim.
Dinlə, Azərbaycan, ana torpağım,
Dinlə, ürəyimdə sözüm var mənim;

Döyüşdə ölərsəm, son nəfəsədək
Sevmişəm yurdumu, inan buna sən.
Bir bala tərlandım sənin yuvanda,
Sənin qucağında boy atmışam mən.

Mehriban anama sən təsəlli ver,
De, oğlun qorxmazdı, o qəhrəmandı.
Qranit siqlətli torpağımız tək
O da əyilmədi, möhkəm dayandı.

Dost məni soruşsa, nişan ver ona -
Məni xəbər alsın dağ küləyindən.
Bilsin əbədilik cavan olmuşam,
Dağlara hay salan o küləyəm mən!..

Doğma obamızı bircə anlığa
Əgər qərq eləsə işığa şimşək;
De ki, məndən alıb parıltını o,
Mən də şölə saçdım bir vaxt onun tək.

Çatdır qocalara bu sözlərimi:
Öz xalqı, öz eli - yurdu naminə
Mənim tək yaşayıb ölənlər, ölmür
Bu gün də, sabah da yaşayır yenə.

Gəlir, gəlsin ölüm, gəlsin, hazıram,
Təki, başım üstə yansın şəfəqin.
Bilirəm dostlarım əzib düşməni
Mənim qisasımı alacaq yəqin!

## Anarsan məni

Gün gələr, dağlara doğar ilk bahar,
Qəmli könüllərin açılar pası.
Cəbhədən qayıdar qızlar, oğlanlar,
Zəfərlə qurtarar Vətən davası.

Alınar yağıdan qisas, intiqam,
Sönər xəyanətin hisli çırağı.
Al-əlvan geyinər hər tərəf tamam,
Gülər insanlığın könül otağı.

Gülər yer üzünün bəzəyi insan,
Mahnılar bürüyər azad Vətəni.
Bax, belə bir gündə olmazsam, ey dost,
Bir anlıq yad edib anarsan məni...

# İdman

## Azərbaycan şahmatçısı Dubayda keçirilən beynəlxalq turnirin qalibi olub



Dubayda keçirilən "Allegiance to Zayed Chess Tournament 2019" şahmat turnirinə yekun vurulub.

9 turdan 8,5 xal toplayan azərbaycanlı qrossmeyster Qədir Hüseynov turnirin qalibi olub. Ermənistan təmsilçisi Qabriel Sarkisyan 7,5 xalla ikinci, Moldova şahmatçısı Viorel Lordaçesku 7 xalla üçüncü yerdə qərarlaşıblar.

## Kanada Qran-Prisində Azərbaycanı dörd kişi cüdoçu təmsil edəcək



Kanadanın Monreal şəhərində keçiriləcək Qran-Pridə Azərbaycanı təmsil edəcək kişi cüdoçular müəyyənləşib.

Turnirdə ölkəmizi Kərəmət Hüseynov (60 kq), İbrahim Əliyev, Nicat Şıxəlizadə (hər ikisi 66 kq) və Murad Fətiyev (81 kq) təmsil edəcəklər.

## Sərbəst güləşçilərimiz ikinci Avropa Oyunlarına hazırlığı davam etdirirlər

Sərbəst güləş üzrə yığmamız mayın 15-də növbəti təlim-məşq toplanışına başlayıb.

Göygöl Olimpiya İdman Kompleksində keçirilən hazırlıq prosesi mayın 30-dək davam edəcək.

Baş məşqçi Saypulla Absaidov, böyük məşqçi Zəlimxan Hüseynov, məşqçilər Arif Abdullayev və Sadruddin Ayqubovun rəhbərliyi altında toplanışda Mahir Əmiraslanov, Georgi Edişerašvili (hər ikisi 57 kq), Əsgər Məmmədəliyev (61 kq), Hacı Əliyev, Əli Rəhimzadə (hər ikisi 65 kq), Ağahüseyn Mustafayev (70 kq), Hacımurad Hacıyev, Toğrul Əsgərov (hər ikisi 74 kq), Abubakr Abakarov (79 kq), Cəbrayıl Həsənov, Aleksandr Qostiyev (hər ikisi 86 kq), Şamil Zubairov (92 kq), Nurməhəmməd Hacıyev (97 kq), Seyid Məhəmmədrza Azərşakib və Camaləddin Məhəmmədov (hər ikisi 125 kq) yer alıblar.

## Azərbaycan idmançıları “Oceanman” seriyasında çıxış ediblər



Azərbaycan idmançıları nüfuzlu "Oceanman" üzgüçülük seriyasının Alanyada (Türkiyə) keçirilmiş növbəti mərhələsində iştirak ediblər.

İlboyu açıq suda keçirilən bu yarışlarda həm peşəkarlar, həm də həvəskarlar çıxış edirlər. Alanya mərhələsində Azərbaycandan olan 15 atlet, o cümlədən "Baku Tri Club"ın nümayəndəsi, respublikada birinci "Ironman" olan Firdovsi Kərimov özünü sınayıb. O, suda 5 kilometr məsafəni 1 saat 41 dəqiqəyə qət edərək azərbaycanlı həvəskar idmançılar arasında ən yaxşı nəticə göstərib.

Əli Bünyadov, Hacıverdi Ziyadov, Murad Kərəmov, Raul Mahmudzadə, Balaheydər Kərimov, Camal Şahverdiyev, Həmid Qaracayev, Aqşin Səlimov, Fuad Zülfüqarov, Elşən Abdullayev, Fərrux Novruzov, Günel Eldarzadə və Yəhya Bayramov da finişə uğurla çatıblar.

**AZƏRTAC-ın materialları əsasında**

3-cü dərəcəli kapitan Seyidov Əhəd Yasin oğluna və kapitan Foladi Həbib Nüsrət oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 419
Nüsxə 3950